**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN MUSİQİ FOLKLORŞÜNASLIĞINININ İNKİŞAFINDA ELMİ-TƏDQİQAT MUSİQİ KABİNƏSİNİN ROLU

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Leyla Tahir qızı Aslanova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | sənətşünaslıq doktoru, professor<br>**İradə Tofiq qızı Köçərli** |
| Rəsmi opponentlər: | sənətşünaslıq doktoru, professor<br>**Sevda Firuddin qızı Qurbanəliyeva** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Əfsanə Ağayar qızı Babayeva** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Jalə Elman qızı Qulamova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor<br>**Ülviyyə İsmayıl qızı İmanova** |
| Dissertasiya şurasının elmi katibi: | sənətşünaslıq doktoru, dosent<br>**Leyla Ramiz qızı Zöhrabova** |
| Elmi seminarın sədri: | sənətşünaslıq doktoru,dosent<br>**Aytac Elxan qızı Rəhimova** |

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və elmi işlənmə dərəcəsi.** Azərbaycan xalqının mədəni irsinin qorunub saxlanılması və öyrənilməsi musiqi elminin mühüm prioritetlərindən biridir. Bu baxımdan fəaliyyəti haqlı olaraq Azərbaycan musiqi folklorşünaslığının inkişaf tarixində mühüm mərhələ hesab edilən Elmi-Tədqiqat Musiqi Kabinəsinin yaranma və fəaliyyət tarixinin öyrənilməsinin aktuallığını qeyd edirik.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin qarşısında duran əsas məqsəd Azərbaycanın şifahi musiqi irsinin qorunub saxlanması idi. ETMK xadimləri qarşılarına Azərbaycan xalqının şifahi musiqi yaradıcılığını toplamaq, onun nümunələrini lentə almaq, toplanmış materialı öyrənib ümumiləşdirmək vəzifəsini qoymuşdular. Musiqi folklorunun Elmi-Tədqiqat Musiqi Kabinəsi çərçivəsində həyata keçirilən toplanması və yazıya alınması isə öz növbəsində xalq musiqisinin çoxşaxəli nəzəri işlənməsinə təkan vermişdir.

Bu tədqiqatın aktuallığı onunla əlaqədardır ki, Elmi-Tədqiqat Musiqi Kabinəsinin Azərbaycan musiqi folklorşünaslığının inkişafındakı rolu material toplamasının coğrafi hüdudlarının genişləndirilməsi kimi mühüm faktla bağlıdır. Təsdiq edə bilərik ki, ETMK fəaliyyətə başlamazdan əvvəl sistemli material toplanması həyata keçirilmirdi.

Şifahi musiqi yaradıcılığının Elmi-Tədqiqat Musiqi Kabinəsinin qeydləri kontekstində tədqiqinin aktuallığı onunla bağlıdır ki, o, təkcə ETMK-nın Azərbaycan musiqi mədəniyyəti tarixindəki rolunu müəyyən etməyə imkan vermir. Tədqiqat nəticəsində şifahi yaradıcılığın musiqi dilinin bəzi yeni xüsusiyyətləri üzə çıxır. Bu, istər Elmi-Tədqiqat Musiqi Kabinəsinin işi şəraitində həyata keçirilmiş səsyazma variantlarının, istərsə də Azərbaycan folklorşünaslarının və etnomuziqişünaslarının sonrakı yazıları ilə aparılan müqayisəli təhlili sayəsində mümkün olur.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin elmi fəaliyyətinin öyrənilməsi Azərbaycan şifahi musiqi yaradıcılığının tarixi və nəzəriyyəsi ilə bağlı bir çox elmi əsərlərə, mənbələrə müraciət edilməsinə səbəb olmuşdur.

İlk növbədə tərəfimizdən Azərbaycan xalq musiqisinin yazıya alınma tarixi ilə bağlı materiallar araşdırılmışdır. Azərbaycan xalq musiqisinə dair fundamental əsərlər sırasında Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları"[1] əsərini qeyd etmək olar.

Bu sırada Z.Səfərovanın[2], S.Bağırovanın[3], A.İsazadənin[4], Q.Adıgözəlzadənin[5] musiqi elminin tarixinə həsr olunmuş əsərlərini, Azərbaycan musiqi tarixinə dair dərslikləri və 2017-ci ildə Z.Səfərovanın rəhbərliyi ilə nəşr edilmiş "Azərbaycan musiqisi tarixi"ni[6] xüsusilə ayırırıq.

Xüsusilə Azərbaycan xalq musiqisinin yazılış tarixinə həsr olunmuş elmi araşdırmaları qeyd edək. Onların arasında A.İsazadənin[7] doktorluq dissertasiyası, M.Paşayevanın[8] dissertasiyası var.

T.Məmmədovun[9], F.Xalıqzadənin[10], İ.Əfəndiyevanın[11],

---

[1] Гаджибеков, У.А. Основы азербайджанской народной музыки / У.А.Гаджибеков. – Баку: Язычы, – 1985. – 151 с.

[2] История музыки Азербайджана / Рук. пр. и научный ред. З.Ю.Сафарова. – Баку: Элм, – 2014. – 598 с.

[3] История музыки Азербайджана / Рук. пр. и научный ред. З.Ю.Сафарова. – Баку: Элм, – 2014. – 598 с.

[4] Исазаде, А.И. Азербайджанская народная музыка (истоки, проблемы собирания и исследования): / Автореф. дис.доктора искусствоведения / – Киев, 1988. – 46 с.

[5] Адигезал-заде, Г.А. Становление и развитие этномузыковедения в Азербайджане: / Автореф. дис.кандидата искусствоведения / – Баку, – 2005. – 29 с.

[6] История Азербайджанской музыки / Рук. З.Ю.Сафарова. – Баку, – 2017.

[7] Исазаде, А.И. Азербайджанская народная музыка (истоки, проблемы собирания и исследования): / Автореф. дис. доктора искусствоведения / – Киев, 1988. – 46 с.

[8] Пашаева, М.С. Запись, публикация и исследование азербайджанских мугамов: / Автореф. дис.канд.искусств / – Баку, 1991. – 27 с.

[9] Мамедов, Т.А Традиционные напевы азербайджанских ашыгов / Т.А.Мамедов. – Баку: Ишыг, – 1988. – 350 с.

[10] Халыкзаде Ф.Х. Проблема сохранения музыкального фольклора Азербайджана в эпоху глобализации // – Bakı: Musiqi dünyası, – 2003. – № 3-4, – с.124-127.

[11] Эфендиева, И.М. Из истории записей и публикаций азербайджанских мугамов. Традиции музыкальных культур народов Ближнего, Среднего Востока и современность / Сб.материалов Второго Международного музыковедческого симпозиума. Самарканд, 7-12 октября 1983. – Москва: Сов.композитор, – 1987. – с.207-210.

B.Hüseynlinin[12], S.Fərhadovanın[13], S.Bağırovanın[14], İ.Köçərlinin[15], K.Dadaşzadənin[16] elmi əsərlərində və məqalələrində də Azərbaycan şifahi musiqi yaradıcılığının yazılışına dair məlumat və təhlillər var.

Azərbaycan şifahi musiqi yaradıcılığının toplanması və yazıya alınmasına ictimai və peşəkar marağın formalaşması mənzərəsinin yenidən yaradılmasına inqilabaqədərki mətbuatın müxtəlif növ nəşrləri, eləcə də rusdilli mətbuatın materialları imkan verir.

Xalq mahnı və rəqslərinin dərc olunmuş yazılarının müqayisəli təhlili Z.Abdullayeva[17] tərəfindən aparılmışdır. Müəllifin qarşısında mahnıların yazıya alınması metodikasında təkamülün müəyyən edilməsi vəzifəsi dururdu.

Bu xülasə bildirməyə imkan verir ki, Elmi-Tədqiqat Musiqi Kabinəsinin şifahi musiqi yaradıcılığının tarixinə, töhfəsinə, toplanması və yazıya alınması ilə bağlı konkret prosesə həsr olunmuş xüsusi tədqiqatın hələ də aparılmadığını şərh etmək imkanı verir.

**Tədqiqatın obyekti və predmeti**. Azərbaycan musiqi şifahi yaradıcılığı nümunələrinin toplanması, yazıya alınması və deşifrə edilməsi sahəsində Elmi-Tədqiqat Musiqi Kabinəsinin fəaliyyəti tədqiqatın obyektidir.

Tədqiqatın predmeti Elmi-Tədqiqat Musiqi Kabinəsinin Azərbaycan musiqişünaslıq tarixindəki roludur.

**Tədqiqatın məqsəd və vəzifələri**. Bu tədqiqatın əsas məqsədi Elmi-Tədqiqat Musiqi Kabinəsinin Azərbaycan musiqi mədəniyyəti tarixindəki rolunun öyrənilməsi və müəyyən edilməsidir.

---

[12] Гусейнли, Б.Х. Азербайджанская народная танцевальная музыка: / Автореф. дис.канд.искукccтвоведения / – Баку, 1966. – 48 с.

[13] Фархадова, С.Т. Муга-монодия как тип мышления / С.Т.Фархадова – Баку: Элм, – 2001. – 368

[14] История музыки Азербайджана / Рук. пр. и научный ред. З.Ю.Сафарова. – Баку: Элм, – 2014. – 598 с.

[15] Köçərli, İ.T., Köçərli S.T. Elmi-tədqiqat musiqi kabinetinin fəaliyyətindən səhifələr // Azərbaycan etnomusiqişünaslığı üzrə oçerklər. – Bakı: Elm və həyat, – 2017. – s.213-217.

[16] Дадаш-заде, К.Г. Восхождение / К.Г.Дадаш-заде. – Баку: Шерг-Герб, – 2014. – 232 с.

[17] Abdullayeva, Z.A. Azərbaycan toy mərasim musiqisi (“Dərviş toyu”nun təhlili əsasında): / Sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 1995. – 20 s.

Qarşıya qoyulmuş məqsədlə əlaqədar olaraq dissertasiyada tədqiqatın aşağıdakı vəzifələri həllni tapır:

1. ETMK-nin fəaliyyəti ilə bağlı əlçatan olan bütün arxiv materiallarının toplanması;

2. Elmi-Tədqiqat Musiqi Kabinəsinin yaranmasının tarixi əsaslarının işıqlandırılması;

3. ETMK-nin fəaliyyət tarixinin öyrənilməsi;

4. ETMK-nin formalaşmasında Bülbülün rolunun müəyyən edilməsi;

5. ETMK əməkdaşlarının yazılarında şifahi musiqi yaradıcılığı nümunələrinin təhlil edilməsi;

6. Bu nümunələrdə sabit və mobil fəaliyyət göstəricilərinin aşkarlanması;

7. Azərbaycan xalqının şifahi musiqi yaradıcılığının nəşr edilmiş və əlyazma şəklində olan toplularında səsyazma variantlarının təhlilinin aparılması;

8. ETMK-nin fəaliyyətinin müasir musiqişünaslıq üçün məhsuldarlığı və perspektivliyinin nümayiş etdirilməsi.

**Tədqiqat metodları**. Bu dissertasiyanın tədqiqat metodlarından biri mövcud arxiv materiallarının toplanması və sistemləşdirilməsidir. Həmçinin əlyazma və nəşrlərin müqayisəli təhlili aparılmışdır. Mövzumuzun tədqiqi bir neçə metodoloji vektordan istifadəsini nəzərdə tutur. Belə ki, ilk növbədə tarixilik prinsipini qeyd edək. Buna müvafiq olaraq Azərbaycanın mədəniyyət tarixinə, xüsusən də Azərbaycan musiqi tarixinə həsr olunmuş toplular mühüm metodoloji əhəmiyyətə malikdir.

Təhlilin əsasını folklorun mahiyyəti ilə bağlı konkret postulatlar təşkil edirdi. Mövzumuzun analitik tədqiqi, ilk növbədə, Üz.Hacıbəylinin Azərbaycan xalq musiqisinin əsaslarına dair fundamental əsərinə əsaslanırdı[18]. Bundan əlavə, mövzunun elmi-nəzəri baxımdan işıqlandırılması üçün Ə.Bədəlbəyli, M.İsmayılov, R.Zöhrabov, Z.Səfərova, T.Məmmədov, S.Abdullayeva, G.Abdullazadə, S.Fərhadova, B.Hüseynli, K.Nəsirova, C.Mahmudova, K.Dadaşzadə, R.Məmmədova, G.Mahmudova və bir çox başqaları kimi

---

[18] Гаджибеков, Уз.А. Основы азербайджанской народной музыки / У.А.Гаджибеков. – Баку: Язычы, – 1985. – 151 с.

tədqiqatçıların şifahi xalq musiqisi yaradıcılığının təhlilində metodoloji ideyalardan istifadə edilmişdir.

Metodoloji baxımdan biz Azərbaycan xalq musiqisinin Azərbaycan musiqişünasları tərəfindən formalaşdırılmış və çoxsaylı tədqiqatlarda sınaqdan çıxarılmış təsnifat sisteminə əsaslanırıq. Bu sistemin morfoloji parametrləri Azərbaycan xalqının musiqi təcrübəsi ilə ayrılmaz əlaqədə formalaşmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- ETMK-nın yaradılmasının əsasları;
- ETMK-nın fəaliyyəti ilə bağlı əlçatan olan bütün arxiv materiallarını təqdim edilməsi;
- ETMK-nın keçdiyi tarixi yolun ümumiləşdirilməsi;
- Elmi-Tədqiqat Musiqi Kabinəsinin formalaşmasında Bülbülün rolu;
- ETMK əməkdaşlarının yazılarında şifahi musiqi yaradıcılığı nümunələrinin müqayisəli təhlili;
- Azərbaycan xalqının şifahi musiqi yaradıcılığının nəşr edilmiş və əlyazma toplularında lent yazıları variantlarının təhlili;
- Arxiv materiallarının təhlilinin nəticələri.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, bu dissertasiyada Elmi-Tədqiqat Musiqi Kabinəsinin Azərbaycan musiqi folklorşünaslığı tarixindəki rolu ilk dəfə araşdırılır. Fikrimizcə, bu əsər musiqi folklorşünaslığı tarixində müəyyən "boşluqları" doldurmağa və yerli musiqişünaslıqda mütərəqqi prosesləri göstərməyə imkan verir.

Tədqiqatın elmi yeniliyi həm də ondadır ki, bu elmi iş Elmi-Tədqiqat Musiqi Kabinəsinin fəaliyyətinin çoxşaxəli aspektlərinin sistemli şəkildə tədqiq edildiyi və ETMK-nin Azərbaycan musiqi mədəniyyəti və elminin inkişafına verdiyi töhfələrin ümumiləşdirildiyi ilk tədqiqatdır.

İlk dəfə olaraq nəşr olunmuş toplularda və arxivlərdən əldə edilmiş əlyazma siyahılarında mahnı və rəqs yaradıcılığının variantlarının, şifahi ənənəyə aid peşəkar musiqi nümunələrinin müqayisəli təhlili aparılmışdır.

Dissertasiya işində elmi dövriyyəyə ilk dəfə olaraq daxil edilmiş çoxsaylı arxiv sənədləri əsasında Azərbaycan etnomusiqişünaslığının formalaşmasının səciyyəvi xüsusiyyətləri üzə çıxarılır.

ETMK-nin yazıları və deşifrə olunmuş materiallarında musiqinin mühüm xüsusiyyətlərini tədqiq edəcək və müvafiq olaraq Azərbaycan musiqi mədəniyyətinin inkişafında ETMK-nin rolunun parametrlərini üzə çıxaracaq heç bir tədqiqat işi aparılmamışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqatın nəzəri əhəmiyyəti əlyazma və nəşrlərin müqayisəli təhlilindən ibarətdir. Biz praktiki əhəmiyyəti onda görürük ki, dissertasiya materialından və əldə olunan nəticələrdən Azərbaycanın mədəniyyət və incəsənət tarixinə dair ümumi işlərin hazırlanmasında istifadə oluna bilər.

Dissertasiya materiallarından ali təhsil müəssisələrində, məsələn, Bakı Musiqi Akademiyasında, Milli Konservatoriyada, Mədəniyyət və İncəsənət Universitetində, Pedaqoji Universitetdə, Xoreoqrafiya Akademiyasında və digər universitetlərdə mənbəşünaslıq, Azərbaycan xalq musiqisi tarixi kurslarında istifadə oluna bilər.

Fikrimizcə, bu dissertasiya işinin praktiki əhəmiyyəti kifayət qədər yüksəkdir, çünki Elmi-Tədqiqat Musiqi Kabinəsi əməkdaşlarının bir yerə toplanmış yazıları Azərbaycan xalqının XX əsrin 20-30-cu illərində formalaşmış folklor ənənələrini əks etdirir və şübhəsiz ki, etnomusiqişünasların, folklorşünasların marağına səbəb olacaqdır.

Dissertasiya işinin praktiki əhəmiyyətini həm də onda görürük ki, Elmi-Tədqiqat Musiqi Kabinəsinin Azərbaycan musiqi folkloru nümunələrinin toplanması və deşifrə edilməsi sahəsində təcrübəsi müasir folklorşünaslıq problemlərinin həllində zəruri olacaqdır. Məsələn, musiqi folklorunun etnomədəniyyət səviyyəsində kontekst mühitində öyrənilməsində, müxtəlif incəsənət növlərini sintez edən ritual fəaliyyətdə və folklorun hərtərəfli öyrənilməsinin digər formalarında. Bundan əlavə, tədqiqatımızın nəticələrindən alimlərin müasir toplama işi ilə bağlı fəaliyyətində bu fəaliyyətin ayrı-ayrı mərhələlərinin sistemli şəkildə öyrənilməsinin tərkib hissələrindən biri kimi istifadə oluna bilər. Aparılmış tədqiqat şifahi xalq musiqisi yaradıcılığının sistemləşdirilməsi və kataloqlaşdırılması problemlərinin həllində tətbiq edilə bilər.

Fikrimizcə, müasir etnomusiqişünaslığın inkişafının maksimum dərəcədə intensivləşməsi Azərbaycan xalqının şifahi

musiqi yaradıcılığının toplanması və nəşri ilə sıx bağlıdır. Bu dissertasiyada cəmlənmiş materiallar Azərbaycan xalq musiqisinin öyrənilməsini intensivləşdirməyə imkan verəcəkdir.

**Aprobasiya və tətbiqi**. Dissertasiyanın aprobasiyası bir neçə il ərzində aparılmışdır. İşin əsas müddəaları aşağıdakı respublika və beynəlxalq konfrans və seminarlarda məruzə və müzakirə edilmişdir:

"Mədəniyyət: Problemlər və perspektivlər", XVII Beynəlxalq Elmi-praktik Konfransın materialları (Bakı, 2018); "Mədəniyyət: Problemlər və perspektivlər", Doktorntların və gənc tədqiqatçıların XI Beynəlxalq Elmi Konfransın materialları (Bakı, 2017); "Humanitar elmlər sahəsində elmi tədqiqatlar: XXI əsrin kəşfləri", VIII Beynəlxalq Elmi-praktik Konfransın materialları, RF Təhsil və Elm Nazirliyi Pyatiqorsk Dövlət Universiteti (Pyatiqorsk, 27-28 dekabr, 2019); Doktorntların və gənc tədqiqatçıların XXIII Respublika Elmi konfransının materialları (Bakı. 3-4 dekabr, 2019); Elmi-praktik seminar "Etnomusiqişünqslığın müasir problemləri" (Bakı, 2019); "Qloballaşan dünyada musiqi ənənələri", II Beynəlxalq Elmi-praktik Konfransın manerialları (Bakı, 14-16 noyabr, 2022). Bundan əlavə, tədqiqatın nəticələri aşağıdakı elmi jurnallarda qismən təqdim edilmişdir: "Mədəniyyət Dünyası", XXXIV (Bakı, 2017), "Поиск" Beynəlxalq elmi jurnal-əlavə (2018), "Mədəniyyət Dünyası", XXXVI (Bakı, 2018), "Konservatoriya" ("Türk xalqlarının musiqi mədəniyyətinin öyrənilməsi problemləri"), (Bakı, 2019), "Sənət Akademiyası" (Bakı, 2020), Kiyev Milli Mədəniyyət və İncəsənət Universitetinin «Вестник» jurnalı, Seriya: Musiqi sənəti, cild 4, №2 (2021), Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsi incəsənət, dil və ədəbiyyat institutunun Axtarışlar jurnalı, Naxçıvan, «Tusi» – 2024, cild 18, №2 (49).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrasında aparılıb.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** İş Girişdən, üç fəsildən, səkkiz paraqrafdan, Nəticədən, İstifadə olunmuş elmi ədəbiyyat siyahısı və notlar əlavəsindən ibarətdir. İş giriş, üç fəsil, səkkiz paraqraf, nəticədən, istifadə olunmuş elmi ədəbiyyat

siyahısından və notlar əlavəsindən ibarətdir. Dissertasiyasının struktur bölmələrində giriş 13 səhifədən (21 931 işarə), I fəsil 27 səhifədən (49 855 işarə), II fəsil 54 səhifədən (92 420 işarə), III fəsil 39 səhifədən (63 192 işarə), nəticə isə 10 səhifədən (15 366 işarə) ibarətdir. Tədqiqat işinin ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 128 səhifə və 220 847 işarəni əhatə edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, problemin elmi işlənmə dərəcəsi, işin obyekti və predmeti araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, praktiki əhəmiyyəti, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, aprobasiya və tətbiqi, həmçinin dissertasiyanın struktur bölmələrinin həcmi və işin işarələrlə ümumi həcmi müəyyən edilir.

**Birinci fəsildə – "Elmi-Tədqiqat Musiqi Kabinəsinin yaranması və inkişafının tarixi məsələləri"** – iki yarımfəsildən ibarətdir. "Elmi-Tədqiqat Musiqi Kabinəsinin yaradılmasının tarixi əsasları" adlı birinci yarımfəsildə XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın mədəniyyət tarixi dövrü araşdırılır. Bu dövrdə Azərbaycan cəmiyyətini bürüyən qüdrətli maarifçilik hərəkatı Azərbaycan ziyalılarının mütərəqqi fəaliyyətinə və xüsusən də Azərbaycanın mənəvi irsinin qorunub saxlanılması və qeydə alınması problemlərinə maraq göstərilməsinə təkan vermişdir.

Qeyd etmək çox vacibdir ki, artıq Azərbaycan maarifçiləri tərəfindən həyata keçirilən şifahi xalq yaradıcılığının ilk nəşrləri Azərbaycan folklorunu dünya xalq yaradıcılığı sisteminə daxil etməyə imkan vermişdir. Belə ki, müxtəlif növ ayinlər, rituallar, inanclar, azərbaycanlıların etnik mədəniyyətinin poetik dərki maarifçilik hərəkatının nümayəndələrinin, xüsusən də rus mədəniyyətinin nümayəndələrinin adekvat reaksiyasına səbəb olmuşdur. Onların müxtəlif xalqların dünyagörüşləri arasında apardıqları analogiya və paralellər bir tərəfdən azərbaycanlıların etnomədəniyyətinin inkişafından, digər tərəfdən də qədimliyindən xəbər verirdi.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin yaranmasında Üz.Hacıbəylinin böyük rolu olmuşdur. Məhz Üz.Hacıbəyli – dahi

bəstəkar, Azərbaycan musiqi mədəniyyətinin görkəmli xadimi, şifahi musiqi yaradıcılığının bilicisi – Azərbaycan xalq musiqisini ilk dəfə notlar üzərinə qoymuşdur. Ötən əsrin 20-30-cu illərində bəstəkar Müslüm Maqomayev musiqi folklorunun təbliği və inkişafı sahəsində böyük işlər görmüşdür. Xalq Maarif Komissarlığının incəsənət şöbəsinə rəhbərlik, musiqili radio verilişləri şöbəsinə himayədarlıq, dram və opera teatrlarına başçılıq etdiyi dövrdə Müslüm Maqomayev Azərbaycan musiqisinin, xüsusən musiqi folklorşünaslığının inkişafı ilə bağlı məsələlərin həllində fəal iştirak etmişdir.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin yaradılmasının tarixi əsasları bilavasitə Azərbaycan Dövlət Konservatoriyası ilə bağlıdır.

1921-ci ildə fəaliyyətə başlayan Azərbaycan Dövlət Konservatoriyası ilk addımlardan Azərbaycanda musiqi təhsilinin inkişafının əsas mərkəzi kimi fəaliyyət göstərmişdir. Artıq 20-ci illərin ortalarında burada "nəzəri fənn komissiyası" deyilən qurum işləyirdi.

**Birinci fəslin ikinci paraqrafı "Elmi-Tədqiqat Musiqi Kabinəsinin yaranma və inkişaf tarixi"** adlanır.

Paraqrafda ETMK-nin yaranmasında Bülbülün rolu vurğulanır. Azərbaycanın görkəmli xadimləri Elmi-Tədqiqat Musiqi Kabinəsinin yaradılmasında Bülbülün rolu haqqında yazmışlar.

Qara Qarayev öz çıxışlarında Azərbaycanda musiqi elminin inkişafında Bülbülün rolunu dəfələrlə qeyd etmişdir. Bülbülün vətənpərvərliyi, tələbkarlığı, bəstəkar və ifaçıların yaradıcılığına düzgün qiymət verməsi ETMK-nin fəaliyyətinə əvəzsiz töhfə vermişdir. Bütün bunlar Bülbülün müasirləri tərəfindən yüksək qiymətləndirilmişdir.

Bül-Bül haqqında nəşrlər, arxiv materialları Bül-Bülün Zaqafqaziyada fəaliyyəti Azərbaycanın şifahi musiqi yaradıcılığının, aşıq yaradıcılığının, Azərbaycan muğamlarının toplanması, yazıya alınması, nəşri vəzifələrinin yerinə yetirilməsindən ibarət olan ilk Elmi-Tədqiqat Musiqi Kabinəsinin təşkilatçısı kimi təqdim edir. ETMK iclaslarının qorunub saxlanmış stenoqramları, hesabat məruzələri və digər sənədlər elmi fikrin formalaşmasını, toplanmış materialın tarixi-nəzəri dərkini əks etdirir.

1935-ci ilə qədər Elmi-Tədqiqat Musiqi Kabinəsinin işi dəqiq şəkildə müəyyənləşdirilmişdi. Belə ki, Üz.Hacıbəyli tədqiqat işləri ilə məşğul olmuş, folklor nümunələrinin yazıya alınması, emalı, fono-arxiv işləri isə Səid Rüstəmov tərəfindən həyata keçirilmişdir. Nəğmə və instrumental yaradıcılıq nümunələri, dastanlar və muğamları Xədicə Qayıbova toplayıb sinxronlaşdırırdı. Bundan əlavə, xanəndə Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, tarzən Qurban Primov kimi görkəmli musiqiçilərin yaradıcılığı fəal şəkildə lentə alınırdı. 1935-ci ildən Elmi-Tədqiqat Musiqi Kabinəsinin işinə Azərbaycan musiqisinin Qara Qarayev, Cövdət Hacıyev, Tofiq Quliyev, Məmmədsaleh İsmayılov, Zakir Bağırov kimi gələcək korifeyləri cəlb olunmuşdular. ETMK əməkdaşlarının Şəki, Kuba, Gəncə, Qazax bölgələrinə, Dilicana, Borçalıya və s. səfərlər etmiş ekspedisiyaları hamıya məlumdur.

Arxiv sənədləri, Elmi-Tədqiqat Musiqi Kabinəsinin iclas protokollarının materialları, ekspedisiya iştirakçılarının şəxsi arxivləri, ETMK əməkdaşlarının, sonralar Azərbaycan musiqi mədəniyyətinin görkəmli xadimləri Q.Qarayevin, F.Əmirovun, Niyazinin, S.Rüstəmovun, Z.Bağırovun, Ərtoğrul Cavidin, M.İsmayılovun, T.Quliyevin, A.Zeynallının məqalə və çıxışları hər bir yazıya alınmış musiqi yaradıcılığı nümunəsinin müxtəlif aspektlərdən nəzərdən keçirildiyini təsdiqləməyə imkan verir.

Belə ki, bu və ya digər nümunənin janr mənsubiyyətinə, onun spesifik xüsusiyyətlərinə, mövcudluq kontekstində fəaliyyət göstərməsinə, ifaçıların – etnoforların, informatorların, peşəkar musiqiçilərin xüsusi qeydiyyatına ən böyük diqqət yetirilmişdir.

**İkinci fəsil "Elmi-Tədqiqat Musiqi Kabinəsinin arxivindən mahnı və rəqs musiqi materiallarının təhlili"** adlanır.

**"Səid Rüstəmovun yazılarında Azərbaycan xalq mahnılarının variantlarının müqayisəli təhlili" adlı birinci yarımfəsildə** Azərbaycan xalqının şifahi musiqi yaradıcılığının arxivlərdə mövcud olan variantları təhlil edilir.

Mahnı janrını tətbiq prinsipinə görə lirik, ritual, tarixi və s. mahnılar kimi fərqləndirmək imkanı yaranmışdır. Janr parametrlərinin öz qanunauyğunluqları var, buna görə də şəhər mahnı lirikası nümunələrinə, ritual nümunələrinə görə distribusiyası,

əlbəttə ki, musiqi dilinin və formasının xüsusiyyətlərinin müvafiq nəzərə alınmasını, anlaşılmasını şərtləndirir. Bu, xalq arasında gündəlik musiqi mühiti şəklində mövcud olan nəğmələr təbəqəsi idi.

Qeyd edilməsi vacibdir ki, Elmi-Tədqiqat Musiqi Kabinəsinin əməkdaşları şifahi musiqi yaradıcılığı nümunələrinin toplanmasında böyük, xüsusi təcrübəyə malik olmadan, işə toplanma işinin sistemli şəkildə əsaslandırılmasından başlamışlar. Xalq mahnılarının yazıları dəqiqliklə mətnaltı şəklə salınmışdır. Əhəmiyyətli cəhət mahnı yaradıcılığının kontekstual mövcudluğu amili, yəni konkret zona və ya lokal mahnı nöqtəsi olmuşdur.

Xalq musiqisi elmi-tədqiqat kabinəsi çərçivəsində həyata keçirilmiş yazılarda ilk dəfə olaraq Azərbaycan musiqi xalq sənətinin ilkin nümunələrinə mümkün qədər yaxın variantları meydana çıxırılmışdır. Və bu, ETMK-nin fəaliyyətində əldə edilmiş başlıca nailiyyətidir. Bununla əlaqədar şifahi musiqi xalq yaradıcılığının müxtəlif yazılarının variantlarını nəzərdən keçirmək və öyrənmək, əhəmiyyətli invariantları üzə çıxarmaq imkanı yaranır.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin yazılarında təqdim olunan Azərbaycan xalq musiqisi nümunələrinin folklorşünaslıq tarixinin daha erkən dövrü və XX əsrin ikinci yarısını əhatə edən dövrünün yazıları ilə müqayisəli təhlili aşağıdakı səbəblərdən mühüm əhəmiyyət kəsb edir:

1. Eyni musiqi nümunəsinin variantlarının müqayisəsi Elmi-Tədqiqat Musiqi Kabiəsinin materialına dəyərlər mövqeyindən yanaşmağa imkan verəcək;

2. Musiqi nümunələrinin variantlarının müqayisəsi nəticəsində musiqi dilinin ən çox təkrarlanan elementləri, deməli, sabit, sosial-tarixi kontekstin təsirinə davamlı elementləri aşkarlanır;

3. ETMK xadimlərinin yazılarında Azərbaycan xalq musiqisi nümunələrinin variantlarının digər, məsələn, dada sonrakı yazılarla müqayisəli təhlili musiqi dilinin ən davamlı, milli özəlliyi ilə parlaq olan komponentlərini əsaslandırmağa imkan verir.

Tədqiqatın növbəti mərhələsində Səid Rüstəmovun nəşr olunmuş külliyyatındakı yazıları ilə Azərbaycan xalq mahnılarının çap olunmamış arxiv variantlarını müqayisə etməyi zəruri hesab etdik.

Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun arxivində tərəfimizdən xalq mahnılarının bir neçə əlyazma siyahısı aşkarlanmışdır. Nəşr olunmuş nümunələrin əlyazmalarla təhlili Elmi-Tədqiqat Musiqi Kabinəsi kollektivinin dəqiq və zəhmətli əməyini sübuta yetirir.

**İkinci fəslin ikinci paraqrafı "ETMK-nin əlyazma siyahılarında Azərbaycan xalq mahnılarının variantlarının xüsusiyyətləri"** adlanır.

Müşahidələrimizi gücləndirmək məqsədilə Azərbaycan xalq mahnılarının Müslüm Maqomayev, eləcə də M.İsmayılov tərəfindən aparılan arxiv yazılarını nəşr olunmuş materialla, yəni S.Rüstəmovun "Azərbaycan xalq mahnıları" adlı ikicildlikdəki mahnılarla müqayisə edilir.

M.Maqomayevin xalq mahnılarının yazılarından ibarət olan əlyazmaları Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar

İnstitutunda Müslüm Maqomayevin[19] arxivində saxlanılır. M.İsmayılovun lentə aldığı mahnılar Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun arxivindədir. Biz həmçinin Niyazinin lentə aldığı, Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun arxivində və Niyazinin ev-muzeyində saxlanılan variantların da müqayisəli təhlilini aparmağı zəruri hesab etdik. M.Maqomayevin xalq mahnılarının yazıları olan əlyazmaları Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda Müslüm Maqomayevin arxivində saxlanılır. M.İsmayılovun lentə aldığı mahnılar Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun arxivindədir. Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun arxivində və Niyazinin Ərtoğrul Cavidin ev-muzeyində saxlanılan Niyazinin lentə aldığı variantların da müqayisəli təhlilini aparmağı zəruri hesab etdik.

Nəşr olunmuş toplulardakı mahnı materialı melodiyaların bütün rəngarəngliyi, məqam-intonasiya təşəkkülü, forma yaradıcılığı, sintaksisi ilə vahid semantik çevrəyə daxildir və müəyyən musiqi ifadə xüsusiyyətlərinə malikdir.

---

[19] Müslüm Maqomayevin arxiv fondu // Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Fond № 25, siyahı № 1, v.106.

Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun arxivində saxlanılan, Elmi-Tədqiqat Musiqi Kabinəsində mövcud olan fono-çarxlarla Niyazinin əlyazmalarının da təhlili aparılmışdır. Bu əlyazmalara Azərbaycan xalq rəqslərinin səs yazılarının deşifrəsi kimi başlıqlar verilmişdir.

Mədəniyyət Nazirliyinin Niyazinin Ev Muzeyində Azərbaycan mahnı irsinin səksən nümunəsi saxlanılır.

1934-cü il Lənkəran ekspedisiyasının Niyazi tərəfindən həyata keçirdiyi səs yazıları maraq doğurur. Əlyazma mahnı materialının janr rəngarəngliyi ilə seçilir. Belə ki, lirik mahnılar da, xorun müşayiəti ilə mahnılar da, əmək mahnıları, məsələn, "Çoban mahnı" səs yazısına alınmışdır. Burada Astara bölgəsi mahnılarına da rast gəlirik. Bu əlyazmalar toplusunda, məsələn, Niyazinin fortepiano işləmələri də yer almışdır. Qeyd edək ki, hər bir musiqi nümunəsinin altında Niyazinin imzası durur.

Azərbaycan xalq mahnılarının daha bir əlyazma toplusu Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun arxivində saxlanılır. Bu mahnıları Elmi-Tədqiqat Musiqi Kabinəsinin əməkdaşı, sonralar görkəmli nəzəriyyəçi alim, konservatoriyanın professoru M.İsmayılov lentə almışdır.

**İkinci fəslin "ETMK-nın əlyazma mənbələrində rəqs melodiyalarının təhlili" adlı üçüncü paraqrafda** rəqs melodiyaları təhlil edilir.

ETMK yazılarında rəqs musiqisi ilə bağlı toplanmış musiqi materialının janr definisiyaları, həmçinin bu və ya digər nümunənin tətbiqi və ifadə funksiyası konkret olaraq əks olunmuşdur.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin yazılarında rəqs musiqisinin spesifikliyini nəzərə alaraq, Azərbaycan musiqisinin bu janrının ETMK yazılarında aşkar edilmiş aşağıdakı xüsusiyyətlərini qeyd edirik:

1. rəqs musiqisinin janr xüsusiyyətlərinin təzahürünün aydınlığı;
2. lirik və motor (hərəki) janrlarının korellyasiyası;
3. şən və lirik obrazlığın vurğulanması və buna uyğun olaraq, rəqslərin təsnifatı;
4. hər bir nümunənin parametrlərinin aydın nümayişi.

Rəqs melodiyalarından maraqlı nümunələr Zakir Bağırov tərəfindən toplanılmışdır. Yazılar 1939-cu ildə Basarkeçər (Ermənistan) və Borçalıda (Gürcüstan) həyata keçirilmişdir. Ümumilikdə yüz otuz beş melodiya yazıya alınmışdır. Üstəlik, bəzi melodiyalar yazıda bir neçə taktdan ibarət çox qısa variantlardır. Amma bu əlyazma siyahısında genişləndirilmiş rəqs melodiyaları da var. Onların arasında Azərbaycanın şifahi musiqi yaradıcılığının tanınmış, deyərdim ki, klassik nümunələrinə rast gəlinir.

Xalq musiqisini toplayanlar, Elmi-Tədqiqat Musiqi Kabinəsinin əməkdaşları lent yazısında Azərbaycan rəqs musiqisinin səciyyəvi xüsusiyyətlərini əks etdirməyə çalışmışlar. Belə ki, məlum olduğu kimi, Azərbaycan rəqsləri ritm dəqiqliyi, məqam-intonasiya ifadəsinin aydınlığı, özünün əsas tematik vahidlərin qısalığı və dəfələrlə təkrarlanması ilə seçilir. Elmi Tədqiqat Musiqi Kabinəsinin səsyazmalarındakı rəqslərdə dövriliklərin akarlanmasının dinamikliyi dərhal diqqəti özünə cəlb edirdi. Biz ETMK-nin bütün əlyazmalarında məhz bu xüsusiyyətləri görürük.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin əməkdaşları tərəfindən həyata keçirilmiş bütün səsyazmalar melodik, janr, obrazlı, emosional aspektlərin bütün rəngarəngliyi ilə Azərbaycan rəqs musiqisinin xüsusiyyətlərini əks etdirir. Bu dinamik və ifadəli xüsusiyyətlərdən biri də Azərbaycan rəqslərində parlaq əksini tapan variativlikdir.

Maraqlıdır ki, Azərbaycan xalq rəqsləri öz strukturlarının bütün rəngarəngliyi ilə yazıya alınmışdır. Azərbaycan rəqslərin çox zaman vahid quruluşa sığmayan intonasiya müxtəlifliyinə malikdir. Rəqs melodiyalarının özəlliyi – başlanğıc melodik vahidin dəfələrlə dəyişilməsi ilə hərəkətin aktivləşdirilməsi – dərhal “tutulmuşdur”. Yazılarda həm də rəqs musiqisinin refren kimi parlaq səciyyəvi xüsusiyyəti də əks olunmuşdur.

Rəqs melodiyalarının topluda nəşr edilmiş və əlyazma şəklində olan variantları arasında əsas fərq ondan ibarətdir ki, dərc olunmuş rəqslərdə materialın variantlı irəliləyişi modeli çox dəqiq seçilmişdir. Çox zaman bu rolda ikitaktlı və ya üçtaktlı melodik vahidlər çıxış edir.

Əlyazma materialında musiqi materialının inkişafında daha çox sərbəstliyi qeyd edirik. Burada verilmiş tematik “konspektə” ciddi

riayət etməkdən daha çox “improvizasiya” var. Bir ifadə səviyyəsində, qısa formada yazılmış kifayət qədər böyük rəqs melodiyaları qrupu istisna təşkil edir. Bu mənada vurğulayırıq ki, ostinant inkişaf dərəcəsi də fərqlənir – sadə təkrarlanmadan dəyişilmiş təkrarlanmaya kimi.

Rəqs melodiyalarının dərc edilmiş və əlyazma şəklində olan yazılarını bir-birindən fərqləndirən bir sıra digər əlamətlər də mövcuddur. Belə ki, əlyazmalarda iki tendensiya üstünlük təşkil edir: açıq sıçrayışların prioritetinə meyl və sıçrayışların daha çox ornamental, variantlı üsulla doldurulması. Nəşrlərdə biz ostinant meyllərin üstünlük təşkil etdiyini və dar diapazon çərçivəsində rəqs yenilənməsinin inkişaf etdirilməsi istəyini qeyd edirik. Əlbəttə, bu müqayisəli korrelyasiya şərtlidir. Bununla yanaşı, variantlarda müşahidə olunan xüsusiyyətlərin üstünlük təşkil etdiyini əks etdirir.

**Üçüncü fəsil “Şifahi ənənəyə malik peşəkar musiqisinin toplanmasında Elmi-Tədqiqat Musiqi Kabinəsinin fəaliyyəti” adlanır.**

**“Şifahi ənənəyə malik peşəkar musiqi yazılarının tədqiqi aspektləri” adlı birinci paraqrafda** ETMK-nin muğamlarla bağlı informasiya materialı araşdırılır.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin muğam sahəsində gördüyü işləri araşdıraraq, Süleyman Mansurovun Azərbaycan musiqisinin tarixi, xüsusən də Azərbaycan muğamının tarixi ilə bağlı E.Cavid tərəfindən təqdim edilmiş və rəy bildirilmiş xatirələrinə diqqət yetirək. Belə ki, Süleyman Mansurovun xatirələrində kamançaçı Mirzə Səttar, xanəndə Mola Rza Ərdəbilli, Bakili Baladadaş, Kor Hacı, Urlu İskəndər, Hacı Məlik Heydər, Xəlil, Məşədi Əbdül Hüseyn, Kəblə Eldar, Məşədi Məmməd Müğbil, Kəblə Ağa Bala Ağa Seyid oğlu, Qədir Bala və b. kimi musiqiçilər yer alır.

S.M.Mansurov musiqiçilərin tərcümeyi-halından maraqlı məlumatlar verir, onların xarici görünüşünü, hər birinin həyatından müxtəlif fraqmentləri təsvir edir.

Ərtoğrul Cavid Süleyman Mansurovun təqdim etdiyi və xanəndənin o dövrün muğamlarında istifadə etdiyi 100-dən çox mətni üç qrupa ayırır:

1. Xalq melodiyalarının mətnləri və musiqiçilər tərəfindən ifa edilməklə məlum olan mətnlər;
2. Azərbaycan şairlərinə məxsus mətnlər;
3. İran klassik ədəbiyyatından məlum olan şeirlər.

ETMK materialından da göründüyü kimi, tanınmış musiqiçilərin xatirələri, xalq musiqisi haqqında fikirləri, muğam sənətinin tarixi ilə bağlı təqdim etdikləri tarixi faktlar böyük dəyərə malikdir. Bu yarımfəsildə təsnif yazılarının bəzi xüsusiyyətləri də nəzərdən keçirilir.

Memarlıq və İncəsənət İnstitutunun arxivində maraqlı əlyazma toplusu – Əlisəhabin ifasında M.İsmayılovun təsniflərinin səs yazısı qorunub saxlanılmışdır. C.Qaryağdıoğlunun ifasında daha bir əlyazma toplusu da M.İsmayılov tərəfindən yazılıb.

Nəşr olunmuş məcmuələrdə təsniflər müəyyən dərəcədə unifikasiya olunmuşdur. Səs yazısı ifaçılara fərdi imkanlarını ifadə etmək və səs göstəricilərindən asılı olaraq musiqi mətnini təfsir etmək imkanı verir.

Nəşr olunmuş məcmuələrdəki, məsələn, R.Zöhrabovun nəşrindəki təsniflər mahnının hər bir frazasına diqqət tələb edən rəvan dinamik profili ilə seçilir. Əlyazma variantlarında musiqi materialı bilavasitə xanəndənin ifasından yazya alınır. Məhz bu səbəbdən əlyazma yazılarında zəngin ornamentli, dar diapazonda melodik xəttin fırlanmasına, mahnı materialının geniş miqyasda təqdimatında sərbəstliyə malik nümunələr, mahnı mətninin müxtəlif növ ixtisarları və genişləndirilməsi, ifadə improvizasiyası kifayət qədər çoxdur.

Çox zaman təsniflərin əlyazma və nəşr edilmiş variantları miqyasına görə bir-birindən fərqlənir. Bir qayda olaraq, əlyazma variantları yığcamdır. Əlyazma və çap olunmuş nümunələrdə mətnin struktur vahidlərinin variantlığa görə bir-birindən fərqləndiyini deyə bilərik.

Variantların müqayisəli təhlilində təsniflərin miqyasındakı fərqi qeyd edərək, biz bununla forma yaradıcılığında da fərqləri aşkar edirik. Təkcə onu demək kifayətdir ki, daha geniş struktur nümunələrində variantlıq, məqam-intonasiya kənarlaşmaları sistemi, dəyişkən proseslər kimi forma yaradıcılığı prinsipləri daha aktivdir.

**Üçüncü fəslin “Şifahi ənənəyə malik peşəkar musiqi yazılarının analitik parametrləri – rənglər” adlı ikinci paraqrafında** Azərbaycan rənglərinin çap olunmuş və əlyazma şəklində siyahılarının müqayisəli təhlili aparılır.

Məlumdur ki, M.Maqomayev ilk dəfə 1928-ci ildə Q.Primovun ifasından “Rast” muğamını lentə almışdır. 1930-cu ildə isə Niyazi tərəfindən K.Primovun müşayiəti ilə C.Qaryağdıoğlunun ifasında iki muğam - “Rast” və “Şur” muğamları lentə alınmışdır.

Azərbaycan muğamı çoxhissəli sikl kimi dəstgahlar şəklində T.Quliyev (“Rast dəstgahı”, Bakı, 1936; “Zabul dəstgahı”, Bakı, 1936) və Z.Bağırov (“Dugah dəstgahı”, Bakı, 1936) tərəfindən lentə alınmışdır.

1939-cu ildə Q.Qarayev və F.Əmirov tərəfindən həyata keçirilmiş muğam yazıları da məlumdur. Belə ki, Q.Qarayev “Şur” muğamının “Maye” bölməsini Q.Primovun ifasından, F.Əmirov isə “Rast” muğamının qısa variantını xanəndə Bilal Yəhyanın ifasından lentə almışdır. Yarımfəsildə arxivdə saxlanılan material qısaca təsvir edilir.

Müslüm Maqomayevin əlyazma lent yazılarında topladığı yüz şifahi xalq yaradıcılığı nümunəsi arasında muğam yaradıcılığı nümunələri də vardır. Belə ki, M.Maqomayev “Rast” instrumental muğamını onun tam versiyasında Qurban Primovun tarda ifasından, “Mahur” rəngini, həmçinin, Q.Primovun ifasından yazmış, bir neçə nümunəni Müslüm Maqomayev Əhməd Bakıxanovun tarda ifasından yazıya almışdır: bu, “Çahargah”, “Dərəməd”, “Mahur” muğamlarıdır. Burada səs yazılarında ifaçılar qeyd edilməyən iki rəng də yer almışdır.

Zakir Bağırovun Bül-Bülün oxumasından və Q.Primovun tarda ifasından səs yazılarının əlyazması Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun arxivində saxlanılır. Maraqlıdır ki, Z.Bağırov “Bayatı isfahan rəngi”nin bir neçə variantını lentə almışdır. Bu cərgədə “Əraq”, “Huzzal” rənglərini qeyd edə bilərik. Z.Bağırov “Rast rəngləri” başlığı altında səsyazma formasını da seçir və burada “Rast” muğamını onun dramaturgiyasının bütövlüyündə təqdim edir. Eyni şəkildə Z.Bağırov “Çahargah” muğamının rənglərini də lentə almışdır.

Niyazinin əlyazma lent yazılarında “Kürdü” instrumental muğamının rəngləri növbələnməklə səs yazısı da var. Niyazi rənqlər yazısını ayrı-ayrı başlıqlar altında verməmiş, yazını bütöv muğam əsəri şəklində vermişdir. Həmin əlyazma materialında biz qısa variantda “Ovşarı” yazısına da rast gəlirik.

Zakir Bağırovun əlyazma lent yazılarına və Azərbaycan rənglərinin nəşr olunmuş variantlarına müqayisəli yanaşma aşağıdakı universal keyfiyyətləri nümayiş etdirir:

- muğam şöbələrinin dramaturji ardıcıl ardıcıllığı. Müvafiq olaraq, məlum kanona bağlılıq formayaradıcı prosesin identikliyini də müəyyən edir;

- tonik cazibə qüvvəsinin və məqam təməllərinin çoxmənalığının tarazlığı;

- düsturlu kadension qrupların tipologiyaları özlərinin məqam-intonasiya ifadəsində, xüsusən də kadension qrupların tezliyi və konkretliyi üst-üstə düşür.

Lent yazılarının təbiətindəki yalnız melodik “uyğunsuzluqları” qeyd edək. Belə ki, Azərbaycan rənglərinin nəşr olunmuş toplularında melodik aydınlıq, deyərdim ki, lapidarlıq üstünlük təşkil edir. ETMK yazılarında melodik incəlik və ornamental nüanslar daha çox diqqəti cəlb edir.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin əməkdaşları tərəfindən rənqlərin səs yazılarını ümumiləşdirərək qeyd edirik ki, bu yazılarda təqdim etdiyimiz not materiallarından göründüyü kimi aşağıdakıları müşahidə edirik:

– hər rəngin əsasını forma yaradıcılığını tənzimləyən müəyyən tonik vektor təşkil edir;

– rənglərdə məqam-tonal, məqam-intonasiya yerdəyişmələri məlum muğam kanonu ilə müəyyən edilir;

– rənglərdə forma yaradıcılığı prosesinin mərhələliyi həyata keçirilir;

– rənglərdə funksional təşəkkülün müəyyən taktikası muğam təfəkkür sistemi ilə müəyyən edilir;

– ETMK-də yazıya alınmış rənglər Azərbaycan muğamlarına xas olan çoxölçülüyü əks etdirir;

– Azərbaycan rənglərinin lent yazıları fərdiliyi ilə seçilir ki, bu da, fikrimizcə, görkəmli şəxsiyyətlərin – Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Zakir Bağırovun, Məmməd Saleh İsmayılovun, Ərtoğrul Cavidin fərdiliyi ilə bağlıdır.

Rənglərin Elmi-Tədqiqat Musiqi Kabinəsi çərçivəsində aparılan lent yazıları təkcə müəyyən janrın fraqmentlərini göstərməmişdir. Rənglərin lent yazılarında Azərbaycan muğamlarının ən mühüm keyfiyyəti görünür.

**Üçüncü fəslin üçüncü paraqrafı "Aşıq musiqisinin fəaliyyətinə dair Elmi-Tədqiqat Musiqi Kabinəsinin məlumat materialı"** adlanır. Bu yarımfəsildə Musiqi Elmi-Tədqiqat Kabinəsinin aşıq musiqisi ilə bağlı material üzərində işdə Ərtoğrul Cavidin rolundan bəhs edilir.

Qeyd edək ki, Ərtoğrul Cavid Elmi-Tədqiqat Musiqi Kabinəsinin qarşıya qoyduğu vəzifələri öz işində əks etdirən mütəxəssis kimi dastanların, nağılların, mahnıların mətnlərinə çox diqqətlə yanaşırdı. O, dilin ədəbi məziyyətlərinə xüsusi diqqət yetirirdi. Aşıq sənətinin dilinin özünəməxsus xüsusiyyətlərini, lüğət tərkibini, öz üslubuna malik olduğunu nəzərə alırdı. Məhz buna görə də E.Cavid dastan mətnlərinin tədqiqində aşıq dilinin Azərbaycan ədəbiyyatının inkişafındakı rolunu dönə-dönə vurğulamışdır. E.Cavid mühüm məsələ kimi Azərbaycan aşıqlarının şivə problemini önə çəkmişdir. Bu zaman o, dialekt xüsusiyyətlərinə xüsusi diqqət yetirən toplayıcının rolunu xüsusilə vurğulayırdı.

Azərbaycan aşıqlarının yaradıcılığının digər bir cəhəti – yaradıcılığın sinkretizmi – E.Cavidin şərh və rəylərində öz əksini tapmışdır.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin arxivində olduqca maraqlı material Nizami Gəncəvinin "İskəndərnamə" əsərinin variantlarına aid materialların toplandığı "İskəndər xalq yaradıcılığında" ümumi başlığı altında qovluqda saxlanılırdı. E.Cavidin fikrincə, alınma prosesi xeyli mürəkkəb olmuşdur, çünki Nizami Azərbaycan xalqının mənəvi xəzinəsindən sonralar Nizaminin təfsiri ilə yenidən xalq mühitinə, şifahi xalq yaradıcılığına qayıtmış müəyyən obrazlar mənimsəmişdir.

Elmi-Tədqiqat Musiqi Kabinəsi çərçivəsində toplanan bu materialın müəyyən məqsədi var idi. Daha dəqiq desək, Nizami Gəncəvinin yubileyinə Nizamiyə dair materiallar, Nizamiyə həsr olunmuş və xanəndələrin muğamlarda ifa etdiyi konkret mahnılar və s.-dən ibarət toplunun nəşri nəzərdə tutulurdu.

E.Cavid Aşıq Ələsgərin, Aşıq Musanın, Tufarqanlı Abbasın, Hüseyn Bozalqanlının, Aşıq Əmrahın, Misgin Vəlinin, Aşıq Ələsgərin oğlu Aşıq Talıbın və başqalarının dəyərli şeirlərini toplamışdır. Burada dəyişmələr də, məsələn, Aşıq Ələsgərin Aşıq Hüseynlə dəyişməsi yer almışdır.

Bülbülün aşıq havalarının yazıya alınması ilə bağlı 1937-ci ildə yaratdığı təlimatı məlumdur. Bülbül bu təlimatda aşıqların yaradıcılığının yazıya alınmasına kompleks yanaşma faktını vurğulamışdır, çünki aşıqların yaradıcılığı sintetikdir. Təlimatda Bülbül xüsusi diqqət yetirdiyi Ustadnamənin rolunu da xüsusi qeyd etmişdir. Belə ki, təkcə oxuması və ifasından dastan yazılan aşığın adını deyil, həm də bu dastanı şifahi şəkildə çatdıran aşığın adını da qeyd etmək lazımdır. Əgər aşıq dastanı ifa etməzdən əvvəl oxuyur və ya rəqs edirsə, o zaman nəğmənin və ya rəqsin adını mütləq qeyd etmək lazımdır. Bundan əlavə, Bülbül hesab edirdi ki, aşığın ifası üslubun bütün incəlikləri nəzərə alınmaqla, dastanlarda yer alan bütün janr müxtəlifliyi – qaravəlli, lətifə və s. nəzərə alınmaqla yazılmalıdır. Həm də mifoloji, dini, mistik elementlərin dəqiqliklə əks olunması ilə.

1937-ci il martın 22-də Bülbül müşavirə keçirmiş və orada aşıq yaradıcılığında mühüm məsələlər, məhz aşıq yaradıcılığında əsas formaların notlaşdırılması və öyrənilməsi məsələləri müzakirə edilmişdi. Bu yığıncağın əsas məsələləri saz alətinin musiqi quruluşunun tədqiqi, aşıq musiqi sənəti nümunələrinin nota yazılması, aşıq musiqisinin partituralı yazılışı məsələləri olmuşdur. Musiqinin intonasiya strukturunun, eləcə də aşıq terminologiyasının peşəkarlığına və saflığına xüsusi diqqət yetirilmişdir.

**Yekunda dissertasiyanın nəticələri təqdim edilir:**

Dissertasiya işimizdə biz ETMK-nin fəaliyyəti haqqında həm bütöv bir anlayış verməyə, həm də ETMK-nin işinin konkret aspektlərini, Azərbaycan musiqi folklorşünaslığının tarixində

olduqca mühüm rol oynamış təşkilatın yaradılmasının tarixi əsaslarını göstərmək zərurətini müəyyən etməyə çalışmışıq.

Azərbaycan musiqi mədəniyyəti tarixində ETMK-nın rolunun tədqiqinin həm tarixi, həm də nəzəri aspektlərinə müraciət edilməsi mühüm tədqiqat nəticələrinə gəlməyə imkan vermişdir.

Dissertasiyada mənbələrin və arxiv materiallarının xülasəsinin verilməsinə cəhd edilmişdir. Bu materialın təhlili janra görə fərqləndirilmişdir. Analitik parametrlər Azərbaycan musiqili şifahi yaradıcılığı sisteminin universallarından asılı olaraq təsnif edilmişdir. Həmçinin, mahnı, rəqs yaradıcılığı, şifahi ənənədə peşəkar musiqisinin – Azərbaycan muğamlarının, aşıq sənətinin təhlili prosesində müvafiq parametrlər seçilmişdir. Əsas diqqət variantların - nəşr olunmuş və əlyazma nümunələrinin, fəaliyyət göstərmənin sabit və mobil elementlərinin, Azərbaycan musiqisinin musiqi sisteminin əsas determinantlarının öyrənilməsinə yönəldilmişdir.

Elmi-Tədqiqat Musiqi Kabinəsinin fəaliyyətinin rolu yüksək və əvəzsizdir. Mövcud olduğu qısa müddət ərzində bu təşkilat çoxlu musiqi materialı toplamışdır. Bu material Azərbaycanın zəngin musiqi mədəniyyətini yazılı şəkildə qeydə almış və onu geniş mədəni kontekstdə nümayiş etdirməyə və təbliğ etməyə imkan vermişdir.

ETMK-nin fəaliyyəti Azərbaycan bəstəkarlıq məktəbinin formalaşmasında böyük rol oynamışdır. Toplanmış, yazılı şəkildə lentə alınmış material bu gün də Azərbaycan bəstəkarlarının yeni əsərlərinin yaranmasına xidmət edir.

**Dissertasiyanın mövzusu ilə bağlı aşağıdakı əsərlər dərc edilmişdir:**


1. Асланова Л.Т. Роль Научно-Исследовательского Кабинета Музыки в развитии азербайджанской музыкальной фольклористики // «Культура: Проблемы и перспективы». Материалы XI Международной научной конференции докторантов и молодых исследователей, – Баку: ADMİU-nun nəşriyyatı, – 17 марта, – 2017, – с.74-75.
2. Асланова Л.Т. Некоторые страницы научно-исследовательского кабинета Музыки // – Bakı. "Mədəniyyat dünyası". – 2017. XXXIV, – с.138-143.

3. Асланова Л.Т. Некоторые вопросы изучения деятельности Научно-Исследовательского Кабинета Музыки // «Культура: Проблемы и перспективы». Материалы XII Международной научной конференции докторантов и молодых исследователей, – Баку: ADMİU-nun nəşriyyatı, – 05 апреля, – 2018, – с.85-86.
4. Асланова Л.Т. Теоретические вопросы изучения деятельности Научно-Исследовательского Кабинета Музыки // «Проблемы изучения музыкальной культуры тюркских народов» Материалы XVII Международной научно-практической конференции, – Баку, – 05 апреля, – 2018, – с.171-174.
5. Асланова Л.Т. О деятельности Эртогрул Джавида в Научно-Исследовательском Кабинете Музыки // – Bakı. "Mədəniyyat dünyası". – 2018. XXXV, – с.78-87.
6. Асланова Л.Т. Вопросы сравнительного анализа вариантов азербайджанских народных песен из архива Научно-Исследовательского Кабинета Музыки // – Bakı. "Mədəniyyat dünyası". – 2018. XXXVI, – с.43-50.
7. Асланова Л.Т. Исторические предпосылки создания Научно-Исследовательского Кабинета Музыки // Doktorantların və Gənc Tədqiqatçıların XXIII Respublika Elmi Konfransınnın Materialları. II cild, AzMİU «Nəşriyyat-Poliqrafiya Mərkəzi», – Bakı. – 03-04 dekabr, – 2019, – с.269-270.
8. Асланова Л.Т. О танцевальных мелодиях в рукописных источниках НИКМУЗа // – Bakı. Konservatoriya. – 2019. №1(43), – с.77-82.
9. Асланова Л.Т. Роль Научно-Исследовательского Кабинета Музыки в истории азербайджанской музыкальной фольклористики // Министерство Образования и Науки РФ Пятигорский Государственный Университет «Научные Исследования в сфере гуманитарных Наук: Открытия XXI века» Материалы IX Международной научно-практической конференции, – Пятигорск. – 6-7 июня. – 2019. – с.132-138.

10. Асланова Л.Т. Параметры изучения архивного материала Научно-исследовательского Кабинета Музыки // – Bakı. Sənət Akademiyası.– 2020. №2(10), – с.76-79.
11. Асланова Л.Т. Исторические предпосылки создания Научно-Исследовательского Кабинета Музыки // – Киев: «Вестник» Киевского национального университета культуры и искусств. Серия: Музыкальное искусство, – 2021. Том 4, №2, – с.230-239.
12. Асланова Л.Т. Niyazi və Cövdət Hacıyevin not əlyazmalarının açılmamış səhifələri (Azərbaycan milli musiqi irsinin qorunması kontekstində) // «Музыкальные традиции в глобализационном мире» Материалы II Международной научно-практической конференции, – Баку.– 14-16 ноября, – 2022, – с.83-88.
13. Асланова Л.Т. The establishment of scientific department of musical research – the historical background // – Naxçıvan, «Tusi» – 2024. №2(49), 18 cild, – c.200-205.



25

Dissertasiyanın müdafiəsi 28 noyabr 2024-cü il tarixində saat 11⁰⁰ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 oktyabr 2024-cü il tarixində nüvafiq ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.10.2024

Kağızın formatı: 60x84 1/16

Həcmi: 38991 işarə

Tiraj: 30